**E.Ə.XANƏLİYEVA**
*müəllim*
*e-mail: kh.elmira88@gmail.com*
**:https://orcid.org/0000-0002-0170-3117**

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 33)

**10.62021/0026-0028.2025.3.201**

# DİL SİYASƏTİ VƏ DİL PLANLAŞDIRMASI: ANLAYIŞLAR, FƏRQLƏR VƏ NƏZƏRİ ƏSASLAR

***Xülasə.*** *Aparılan tədqiqat bizdə "dil siyasəti" və "dil planlaşdırması" anlayışlarının nəzəri və funksional aspektlərdən təhlilinin əhəmiyyəti haqqında rəy formalaşdırdı. Tədqiqatın əsas məqsədi bu iki terminin funksiyalarını göstərmək, onlar arasında yaranan qarışıqlığı aradan qaldırılmaqla elmi əsaslarla izahı və fərqli yanaşmaların müqayisəli təhlilidir. Dil siyasəti və dil planlaşdırılması bəzən eyni, bəzən isə fərqli anlayışlar kimi qəbul edilir. Dil siyasəti dövlət və ya qurumların dilin istifadəsi, öyrənilməsi və inkişafı ilə bağlı qəbul edilən qərarların məcmusu olmaqla, dil planlaşdırması bu siyasətin texniki və tətbiqi yönünü təşkil edir. Araşdırmanın nəticəsi dil siyasəti və planlaşdırmasının vəhdət içində, lakin fərqli səviyyələrdə fəaliyyət göstərdiyini ortaya qoyur.*

***Açar sözlər:*** *dil, cəmiyyət, dil siyasəti, dil planlaşdırması, sosiolinqvistika, dövlət*

## Giriş.

Dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda sosial kimliyin qurulması və milli ideologiyanın formalaşması baxımından mühüm əhəmiyyətə malikdir. Bu nöqteyi-nəzərdən dövlətlərin dilə münasibəti, onun hüquqi statusu, istifadəsi və öyrədilməsi ilə bağlı qəbul etdiyi qərarlar və strategiyalar **dil siyasəti** adlandırılır. E.İbrahimov dil siyasəti anlayışını bu cür təqdim edir: "Dil siyasəti – bir siyasi vahid içərisində danışılan dillərə, bunların sahələrinə, inkişaf etmələrinə və istifadəsinə istiqamətlənmiş qərar və tətbiqlərin bütövüdür. Dil siyasətinin əsas xüsusiyyəti kənardan şüurlu bir müdaxilənin olmasıdır. Bu kənar müdaxilələr bir dilin daxili quruluşuna yönəlir" [3, s.5].

O, dil təhsili və standartlaşdırmadan tutmuş dil hüquqlarına və linqvistik müxtəlifliyin qorunmasına qədər geniş spektrli fəaliyyətləri əhatə edir. Vacib məqamlardan biri də dil siyasətinin uğurlu olub-olmamasıdır və bunun bir neçə səbəbi ola bilər. M.Əsgərov "Dil siyasətinin nəzəri əsasları" adlı məqaləsində qeyd edir ki, istənilən ölkədə dillə bağlı aparılan dövlət siyasətinin uğurlu və ya uğursuz olması üç əsas faktordan asılıdır: birinci faktor – tətbiq edilən dil siyasətinin modelinin ölkədə mövcud olan real dil situasiyasına uyğunluğu, ikinci faktor – dilçiliyin prioritet istiqamətlərinin tətbiq edilən dil siyasətinə uyğun seçilməsi, üçüncü faktor – dilçiliyin konkret sahələri üzrə tədqiqi zəruri olan istiqamət, problem və mövzuların müəyyən edilməsidir [2, s.179].

Dil planlaşdırması nədir sualına cavab verməzdən əvvəl onun tarixinə qısa nəzər salaq. Termin olaraq dil planlaşdırma 1959-cu ildə ilk dəfə E.Hagen tərəfindən istifadə edilmişdir [5, s. 8]. 1960-1970-ci illərdə dil planlaşdırma əsas tədqiqat sahələrindən birinə çevrildi. Tədqiqatçılar dil planlaşdırmasının nəzəri əsaslarını verməyə çalışsalar da, daha sonra "dillər planlaşdırıla bilərmi?" sualı yaranmışdır.

Dil siyasəti ilə bağlı fəaliyyətlərin planlı, elmə əsaslanaraq təqdim olunması dil planlaşdırması adlanır. Başqa sözlə desək, müəyyən bir dilin və ya dillərin inkişafı, qorunması və ya-

yılması üçün görülən tədbirlərdir. Bu günün dil planlaşdırması 60-cı illərin sosiolinqvistikası daxilində, inkişaf etməkdə olan ölkələrin artmaqda olan dil problemlərinin praktik və təcili həllinin tapılmasına ehtiyacdan yaranmışdır [8, s.13].

**Məqsəd və vəzifələr.**

Dil siyasətini dil planlaşdırmanın başlanğıc nöqtəsi hesab etmək olar. Bu tədqiqatın əsas məqsədi dil siyasəti və dil planlaşdırması anlayışlarını nəzəri aspektdən fərqləndirmək, onların qarşılıqlı münasibətini və praktiki tətbiqini elmi əsaslarla araşdırmaqdır. Burada əsas diqqət bu anlayışların tarixi inkişafına, nəzəri əsaslandırılmasına və müasir dövrdə necə formalaşdığına yönəldiləcək.

Elmi ədəbiyyatda dil siyasəti və dil planlaşdırması bəzən eyni mənada istifadə edilsə də, əslində onların arasında nəzərəçarpacaq fərqlər mövcuddur. Bu tədqiqatın əsas məqsədi "dil siyasəti" və "dil planlaşdırması" anlayışlarını həm nəzəri, həm də funksional aspektlərdən hərtərəfli təhlil edərək onların mahiyyətini, fərqlərini ayınlaşdırmaq, eləcə də qarşılıqlı əlaqəsini elmi əsaslarla izah etməkdir. Müasir elmi ədəbiyyatda bu iki anlayışın bəzən sinonim kimi işlədilməsi onların tətbiq sahələrində nəzəri cəhətdən anlaşılmazlığına səbəb olmuşdur [10, s.5-6].

Hər iki anlayış ümumilikdə dilin cəmiyyətdə funksionallığını və davamlılığını təmin etməyə yönəlmişdir. Lakin **məqsəd və vəzifə baxımından onlar fərqli funksional səviyyələrdə fəaliyyət göstərirlər.** Dil siyasətinin başlıca məqsədi milli və rəsmi dillərin hüquqi statusunu müəyyənləşdirmək, dil bərabərliyi prinsipini qorumaq və cəmiyyətin dil üzrə inteqrasiyasını təmin etməkdir.

R.Heydərovun fikrincə, "Dil siyasəti" anlayışını "dil quruculuğu" anlayışından fərqləndirmək lazımdır. "Dil quruculuğu" termin daha çox mövcud dillərin fəaliyyət göstərməsinə və inkişafına cəmiyyətin şüurlu, məqsədyönlü və elmi təsiri haqqında nəzəriyyə və praktikanı nəzərdə tutur. Bu məfhum dilçilikdə dil siyasətinin praktik sürətdə həyata keçirilməsinə uyğun gəlir. Deməli, dil siyasəti bütövü, dil quruculuğu isə onun hissəsini bildirir" [7, s.45].

J.Qəribova dil siyasətini sosial dilçiliyin bir sahəsi olduğu fikrinə əsaslanaraq yazır: "Bu gün tədqiqatların miqyası və toxunulan problemlərin dilçilik sahəsinin sərhədlərini aşması dil siyasəti problemlərini həm də siyasətin (dövlət dili məsələsi, dil siyasəti və təhlükəsizlik problemləri və s.), sosiologiyanın (bilinqvizm, milli azlıqların dili, dilə münasibət, dil davranışı və s.), hüquq elminin (vətəndaşların dil hüquqları), iqtisadiyyatın (dil siyasəti və iqtisadi səmərəlilik) sahə obyekti hesab etməyə imkan verir" [9, s.3].

Digər tərəfdən, **dil planlaşdırması bu siyasətin həyata keçirilməsi üçün texniki və metodoloji addımlar toplusudur.** Haugenin modelinə əsasən, bu planlaşdırma dörd əsas mərhələdən ibarətdir:

**1. dilin seçimi;**
**2. kodlaşdırılma;**
**3. normallaşdırma;**
**4. yayılma.**

Dilin seçimi mərhələsində planlaşdırma üçün dil və ya dialekt müəyyən olunur. Dilin kodlaşdırılması onun fonetik, leksik və qrammatik cəhətlərini standardlaşdırmaq və qaydaya salmaqdır. Normallaşdırma dilin tətbiqi üçün lazım olan norma və qaydaların yaradılmasıdır. Son mərhələ olan yayılma isə standart dilin bütün sahələrdə tətbiq olunması və geniş ictimaiyyətə yayılmasıdır.

Bu mərhələlər dilin cəmiyyətdə effektiv şəkildə istifadə olunması və cəmiyyətdə öz funksiyasını yerinə yetirməsi üçün praktiki zəmin yaradır. Dilin effektivliyinin digər göstəricisi onun ekoloji mühitidir. Einar Haugen dilin ekoloji mühitinə də istinad etmişdir: "Hər hansı bir dil və onun mühiti arasındakı qarşılıqlı əlaqə" [6, s. 57]. Haugen həmin mühiti sosial və təbii, qismən psixoloji, qismən də sosioloji olaraq təyin edir. O deyir: "Dilin ekoloji mühitini onu öyrənən, istifadə edən və başqalarına ötürən insanlar müəyyən edir" [6, s. 57].

E.İbrahimov dil planlaşdırmanın geniş mənada işlənən bir termin olduğunu qeyd edir: “Dil planlaşdırma, ilk növbədə, problemə yönəlmiş və həmin problemin həlli istiqamətində görülən işlərdən ibarətdir. Dil planlaşdırmanı dil siyasətinin tərkib hissəsi kimi görən yanaşmalar olduğu halda, əksinə, dil siyasətini dil planlaşdırmanın tərkib hissəsi hesab edən tədqiqatçılar da var [4, s.126].

Dil planlaşdırmasının əsas vəzifəsi qəbul edilən qərarların bütün mümkün nəticələrini nəzərə alaraq dilin inkişafı strategiyasını formalaşdırmaq, dil problemlərini həll etmək və ya mövcud dil resurslarını təhlil etməkdir. Dil planlaşdırmasının məqsədləri fərqli ola bilər. Tipik olaraq, dildən istifadə sahələrini genişləndirmək, dildə təhsil imkanlarını nümunə göstərmək olar.

Dil planlaşdırması iki əsas sahəyə bölünür:

1. status planlaşdırma (dilin funksional vəziyyəti);
2. korpus planlaşdırma (dil forma və strukturunda dəyişikliklər).

Status planlaşdırma dilin funksiyası və istifadəsi ilə işdir. Bu növ planlaşdırmada dillər və ya dil variantları ilə bağlı qərarlar bu dillərin nəzərdən keçirilən cəmiyyətdə yerinə yetirəcəyi məqsədlər nöqteyi-nəzərindən qəbul edilir.

Korpus planlaşdırma dilin forması ilə işləməkdir. Korpusun planlaşdırması dilin qrafikləşdirilməsi, standartlaşdırılması, modernləşdirilməsi ilə məşğul olur, həmçinin dil üslubları və dil korpusunun genişləndirilməsi (məsələn, neologizmlərin tətbiqi) üzərində işləri əhatə edir. Korpus planlaşdırma ən geniş formada dilin modernləşdirilməsi və dilin standartlaşdırılması ilə məşğul olur.

Dil planlaşdırması adətən dili daha yüksək funksional səviyyəyə yüksəltmək və onun funksiyalarını genişləndirməkdir. Dil planlaşdırma prosesi mövcud dil problemlərinin müəyyən edilməsi və onların həlli metodunun seçilməsi ilə başlayır. Bu işin həyata keçirilməsi mütləq mərhələlərlə baş tutmur; işin bəzi mərhələləri paralel baş verə bilər.

Dil siyasəti ilə dil planlaşdırma arasında əlaqəni göstərməklə yanaşı, bu məfhumlar arasında fərq də ayınlaşdırılmalıdır. Çünki hər birinin yuxarıda qeyd olunduğu kimi fərqli funksiyaları, məqsəd və vəzifələri vardır. Dil siyasəti bəzən dil planlaşdırmasının sinonimi kimi istifadə olunur, lakin daha çox dil planlaşdırmasının məqsədlərinə istinad edir [1, s.29].

Dil siyasəti daha çox makro səviyyədə strateji planlaşdırma kimi çıxış etdiyi halda, dil planlaşdırması mikro səviyyədə icraedici fəaliyyətlərə fokuslanır. Belə ki, dövlət rəsmi dili müəyyən etməklə dil siyasəti həyata keçirir, lakin bu dilin lüğət, qrammatika və tədris resursları ilə təmin olunması artıq dil planlaşdırmasının funksiyasıdır. Azərbaycanın dil siyasətinə nəzər yetirsək, görərik ki çoxmillətli və dinamik sosial-mədəni şəraitə malik ölkə olaraq milli kimlik, dövlətçilik kimi əsas dəyərlər üzərində qurulmuşdur. Azərbaycanın dil siyasətini dövlət dili olan Azərbaycan dilini qorumaq, inkişaf etdirmək, bundan əlavə ərazisində yaşayan azsaylı xalqların dillərini yaşatmaqdır. Dil planlaşdırmasının isə bu siyasətin praktik daşıyıcısı kimi sistemli şəkildə işlənməsi mühüm elmi və strateji əhəmiyyətə malikdir.

***İşin elmi nəticəsi:*** Araşdırma nəticəsində məlum oldu ki, “dil siyasəti” və “dil planlaşdırması” anlayışları mahiyyət etibarilə bir-birini tamamlayan, lakin fərqli nəzəri və funksional çərçivələrdə fəaliyyət göstərən sahələrdir. Dil siyasəti, əsasən, dövlətin dilə dair strateji baxışını və ideoloji mövqeyini əks etdirən bir çərçivə rolunu oynayır. Bu çərçivə cəmiyyətin dil həyatına yön verən normativ-hüquqi və ideoloji qərarları özündə cəm edir. Dil planlaşdırması isə bu siyasətin həyata keçirilməsində istifadə olunan texniki, tətbiqi və metodoloji vasitələr toplusudur.

Müəyyən edildi ki, bu iki sahə arasındakı fərqləri aydınlaşdırmaq və onların qarşılıqlı əlaqələrini sistemli şəkildə təhlil etmək, istər nəzəri, istərsə də praktik baxımdan aydınlıq gətirir, bu istiqamətdə səmərəli addımların atılmasına imkan yaradır. Dil siyasətinin ideoloji və hüquqi çərçivəsi olmasa o zaman planlaşdırma prosesi məqsədsiz və nəticəsiz qalır. Eyni zamanda dil planlaşdırması olmadan dil siyasətinin tətbiq imkanları məhdud olur.

Tədqiqat göstərdi ki, dil siyasəti və planlaşdırması yalnız linqvistik deyil, eyni zamanda ictimai, siyasi və mədəni proseslərlə sıx bağlıdır. Müasir dünyada dilə münasibət təkcə ünsiyyət vasitəsi kimi deyil, həm də milli kimliyin qorunması, sosial inteqrasiya və mədəni müxtəlifliyin idarə olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, dil siyasəti və planlaşdırmasının uzlaşdırılmış şəkildə həyata keçirilməsi cəmiyyətin dil resurslarının effektiv idarə olunmasını təmin edə bilər.

***İşin elmi yeniliyi:*** Bu tədqiqatda "dil siyasəti" və "dil planlaşdırması" anlayışları ilk dəfə olaraq həm nəzəri, həm də funksional aspektlərdən müqayisəli şəkildə təhlil edilmişdir. Bundan əlavə, məqalədə həmin terminlərin qarşılıqlı əlaqəsi, fərqli və oxşar cəhətləri elmi sistemləşdirmə əsasında izah olunmuşdur.

Araşdırmada həmçinin dil siyasətinin ideoloji və strateji çərçivə olduğu, dil planlaşdırmasının isə həmin siyasətin texniki reallaşdırma mərhələsi olduğu göstərilərək, bu iki sahə fərqli səviyyələrdə yerləşən, lakin bir-birindən asılı olan strukturlar kimi təqdim olunmuşdur. Bu yanaşma tədqiqatın elmi yeniliyinə töhfə verə bilər.

***İşin tətbiqi əhəmiyyəti:*** Məqalədə təqdim olunan mövzu, yəni "Dil siyasəti və dil planlaşdırması: anlayışlar, fərqlər və nəzəri əsaslar" çox aktualdır. Əldə olunan nəticəyə görə, bu anlayışlar həm bir-biri ilə sıx əlaqədə olması, həm də ayrı-ayrı funksiyalara malik olmaqla sosiolinqvistika sahəsində dil problemlərinin qoyuluşunda mühüm meyar hesab olunur. Bundan əlavə, tədqiqatın nəticələri sosiolinqvistika fənninin tədrisində, dərslik və metodik vəsaitlərin hazırlanmasında tətbiq oluna bilər.

## Ədəbiyyat


1. Cooper, R.L. Language planning and social change / Cooper R.L. – Cambridge University Press, – 2010. – 216 p.
2. Əsgərov, M. Dil siyasətinin nəzəri əsasları // Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri, Humanitar Elmlər seriyası, №1, – 2017, – s.179-187.
3. İbrahimov, E. Dil siyasətinin tarixi baxımdan formalaşması və onun əsas prinsipləri // – Bakı: Tədqiqlər, –2020. №1-2, – s.3-9.
4. İbrahimov, E. Concepts of language policy and language planning // «Progress in Science» №2, 15-16 April, 2023. – pp.123-126
5. İmer, K. Türkiyede Dil Planlaması / K.İmer – Ankara: Türk Dil Devrimi, –1998. – 219 s.
6. Haugen, E. The Ecology of Language / E.Haugen – Stanford: Stanford University press, – 1972. – 366 s.
7. Heydərov, R. Heydər Əliyev və Azərbaycanda dil quruculuğu məsələləri. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "AZLİNG 2023 – Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı növbəti beynəlxalq elmi konfransın materialları // Neftçala, – 23 dekabr 2023-cü il, – s.42-47.
8. Jernudd, B.H. Language Planning: Current Issues and Research. Ed. by Joan Rubin and Roger Shuy // B.H.Jernudd. – Georgetown University, – 1973. – pp. 11-23.
9. Qəribova, J. Dil siyasəti ilə bağlı tədqiqatlarda prioritet meyillər // TDD/JofEL, – 2013. – s. 1-11.
10. Spolsky, B. Language Policy / B.Spolsky – Cambridge University Press, – 2004. – 250 s.


**E.A.Khanaliyeva**

## Language Policy And Language Planning: Concepts, Differences And Theoretical Basis

***Summary***

The conducted research has formed an opinion on the importance of analyzing the concepts of "language policy" and "language planning" from theoretical and functional aspects. The main goal of the research is to show the functions of these two terms, to eliminate the confusion between them, to explain them on scientific grounds and to conduct a comparative analysis of different approaches. Language policy and language planning are sometimes perceived as the same, and sometimes as different concepts.

Language policy is a set of decisions made by the state or institutions regarding the use, study, and development of the language, while language planning constitutes the technical and applied aspect of this policy. The results of the research reveal that language policy and planning operate in unity, but at different levels.

***Keywords:*** *language, society, language policy, language planning, sociolinguistics, state*

**Э.А.Ханалиева**

**Языковая политика и языковое планирование: понятия, различия и теоретические основы**

***Резюме***

Проведенное исследование позволило прийти к выводу о важности анализа понятий “языковая политика” и “языковое планирование” с теоретической и функциональной точек зрения. Основная цель исследования – показать функции этих двух терминов, устранить их путаницу, дать им научное обоснование и провести сравнительный анализ различных подходов. Языковая политика и языковое планирование иногда воспринимаются как одно и то же, а иногда как разные концепции. Языковая политика представляет собой совокупность решений, принимаемых государством или учреждениями в отношении использования, изучения и развития языка, в то время как языковое планирование представляет собой технический и прикладной аспект этой политики. Результаты исследования показывают, что языковая политика и планирование действуют в единстве, но на разных уровнях.

***Ключевые слова:*** *язык, общество, языковая политика, языковое планирование, социолингвистика, государство*

*Rəyçi : filol.f.d., dos. R.A.Heydərov*

*Redaksiyaya daxil olub: 13.08.2025*